Təhlükəsiz məktəb, arxayın valideyn

**Yaranma tarixi:** 2016-cı il

**Məqsəd:** Müəllim və şagirdlər üçün məktəbdə təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilkin tibbi və psixoloji yardım göstərməkdir.

**Məlumat:** Yaşı 21-30 aralığında, Azərbaycan Respublikasının vətəndaşı olan istənilən ali təhsilli şəxs məktəblinin dostu olmaq üçün müraciət edə bilər. Məktəblinin dostu seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər.

**Əhatə dairəsi:** Layihə Bakıda 186, Abşeronda 20, Sumqayıtda 20 təhsil müəssisəsi olmaqla, ümumilikdə 226 ümumi təhsil müəssisəsində fəaliyyət göstərir. 400 minə yaxın şagirdi əhatə edən layihə üzrə hazırda 400 əməkdaş-məktəblinin dostu çalışır.